# GÖZLƏR

Axşama az qalırdı. İki yalın ortasında görünən günəş yavaş-yavaş saralırdı. Gündüzkü istidən sonra hava bir az soyumuş, səhərdən bəri yerə od püskürən günəş sanki yorulub gücdən düşməyə başlamışdı.

Təmiz səmada süzən qartal arabir aşağı enir, sərt qayaların birinə qonur, o dəqiqə də ox kimi göyə ucalırdı.

Ətraf sakit idi.

Bir tərəfdən sərt qayalıqlarla, o biri tərəfdən qalın meşə ilə əhatə olunmuş geniş çəmənlikdə uzanan şose ilə mavi rəngli bir "Pobeda" gedirdi. Maşında şoferdən başqa daha üç nəfər var idi. Onlardan ikisi arxada, biri qabaqda – şoferin yanında oturmuşdu. Danışmırdılar.